# Sağlam millət hər şeyə qadirdir

## Bəhram Bağırzadə: "Birinci Avropa Oyunlarının Azərbaycanda keçirilməsi ölkəmizə həm maddi, həm də mənəvi cəhətdən xeyir gətirəcək"




**"Ulduz səfir" rubrikamızın bu dəfəki qonağı komediya ustası, tanınmış aktyor, I Avropa Oyunlarının "Çimərlik futbolu" üzrə ulduz səfiri Bəhram Bağırzadədir. Müsahibimiz Avropa Oyunlarının ölkəmiz üçün yaradacağı imkanlardan, gələcək prespektivlərdən danışdı. O, qəzetimiz vasitəsilə həmvətənlərimizə səslənərək onları bu mötəbər yarışmada iştirak etməyə, dövlətimizə dəstək olmağa çağırdı.**




**- Bəhram bəy, "Bakı-2015" birinci Avropa Oyunlarının vətənimizdə keçirilməsinə artıq sayılı günlər qalıb. Bu oyunlar barədə sizin də münasibətinizi öyrənmək istərdik.**

- Birinci Avropa Oyunlarının vətənimizdə keçirilməsini yüksək qiymətləndirirəm. Deməк olar ki, uşaqlıq arzularım yavaş-yavaş həyata keçir.

**- O, hansı arzulardır ki?**

- Son 12 il ərzində uşaq vaxtı nə arzulamışamsa, hamısı bir-bir gerçəkləşir. Arzulayırdım ki, Bakıda, doğma vətənimizdə olimpiadalar keçirilsin, biz də onu televizor vasitəsilə deyil, canlı şəkildə izləyə bilək. Artıq bu arzumu dövlətimiz həyata keçirir. Çox xoşdur ki, bu günü görmək bizə qismət olacaq. Biz də vətənimizi sevən bir sıravi vətəndaş kimi çalışırıq ki, xalqımız üçün önəmli olan bu mötəbər yarışmada əlimizdən gələni edək. Mən ilk Avropa Oyunlarının ulduz səfiri seçilmişəm. Bu şərəfə layiq görüldüyüm üçün çox məmnunam. Bildiyiniz kimi, mənim öhdəmə "Çimərlik futbolu" idman növü düşüb. Artıq 4 aydır ki, gecə-gündüz bu yöndə çalışırıq. Avropa Oyunları ilə bağlı ölkəmizdə çəkilən reklamlarda, PR aksiyalarda iştirak edirik. Bu yaxınlarda Sloveniya və Avstriyadan qayıtmışam. Orada promaksiya, konkurslar keçirmişdim. Hazırda Çimərlik futbol klubu ilə işlər gedir. Tamaşaçıları stadionlara cəlb etməyə çalışırıq. Boş oturmuruq, tez-tez Çimərlik futbolu üzrə Azərbaycan komandasının baş məşqçisi Joze Miquel Mateusnab Şepkinlə görüşürəm. Daha sonra Eiriz Mata ilə görüşüm olub. O, çimərlik futbolu üzrə sonuncu dörd Dünya Çempionatında hakimlik edib. Onlar da əllərindən gələni edirlər. Sizin qəzet və saytınız vasitəsilə insanlara səslənirəm və onların da Avropa Oyunlarında iştirak etmələrini istəyirəm. Futbolu sevənlərin hər birini Çimərlik futboluna çağırırıam. Gəlin hamımız əl-ələ verək, birlikdə dövlətimizə, ölkəmizdə keçirilən bu mötəbər yarışmaya dəstək olaq.

Bu, Azərbaycanın qələbəsidir, çünki belə bir xoşməramlı tədbir məhz burada keçirilir. Bizim bədbəxt qonşularımız apreldə öz qondarma "soyqırımı"larının 100 illiyini qeyd etdilər. Ancaq istəklərinə nail ola bilmədilər. Qoy görsünlər ki, Azərbaycan necə böyük bir yarışmaya ev sahibliyi edir. Biz də Allahın köməkliyi ilə 2115-ci ildə Birinci Avropa Oyunlarının 100 illik yubileyini qeyd edərik. Bu, artıq tarixdir, vətəndaşlarımızın şahidi ola biləcəkləri möhtəşəm bir hadisədir. Çimərlik futboluna gəlincə isə, "Bakı 2015" birinci Avropa Oyunlarında bu yarışlar 24-28 iyun tarixlərində 1500 izləyici tutumuna malik Müvəqqəti Çimərlik Arenasında keçiriləcək. Onu da qeyd edim ki, Çimərlik futbolu çimərlikdə və ya qum meydançasında oynanılan futbol oyununun bir variantıdır.

**- Bəhram müəllim, "Bakı-2015" Avropa Oyunlarında səfir kimi çıxış etdiyinizə görə həyəcan keçirirsinizmi?**

- Hər kəs bilir ki, mən futbol həvəskarıyam. Özümü ruhən hazırlamışdım ki, mənə futbol düşəcək. Dostlarımızla Avropa Oyunları barədə danışanda demişdim ki, çox istəyirəm mənə futbol səfiri düşsün. Bildiyim sahə olduğu üçün orada özümü rahat hiss edəcəyəm. Özüm də futbol oynamağı sevirəm və onun azarkeşiyəm. Bir səfir kimi mən də onlara öz üsullarımı öyrədəcəyəm.

**- Avropa Oyunlarına qədər çimərlik futbolu üzrə məşq etməyi düşünürsünüz?**

- Qoy futbolçular məşq etsinlər, mən artıq hazıram (gülür). Əlbəttə ki, zarafat edirəm. Möhtəşəm bir oyun olacağına inanıram. Azərbaycan vətəndaşı kimi Avropa Oyunlarının vətənimizdə keçiriləcəyinə çox sevinirəm. İnanıram ki, bu yarışdan sonra Azərbaycanı bütün dünya tanıyacaq, xarici turistlərin ölkəmizə axını davam edəcək. Qoy bütün dünya Azərbaycan xalqının yaxşı tərəflərini yaxından görsün. Azərbaycanı dünyaya gözəl şəkildə təqdim etmək üçün mən də bu layihədə iştirak edirəm və bizə oyunların keçiriləcəyi günü səbirsizliklə gözləmək qalır.

**- Sizcə, bu Oyunlardan sonra bizim qazancımız nə olacaq?**

- Birinci Avropa Oyunlarının Azərbaycanda keçirilməsi ölkəmizə həm maddi, həm də mənəvi cəhətdən xeyir gətirəcək. Belə ki, Avropa ölkələri Azərbaycan haqqında kifayət qədər məlumata sahib olacaqlar. Ölkəmizə turistlər cəlb olunacaq, ki, bu bizim istənilən halda xeyrimizə işləyəcək. Bir sözlə, Azərbaycan dünya ölkələri arasında tanınmış bir ölkəyə çevriləcək. Mənim üçün bir vətəndaş olaraq ən önəmlisi isə millətin sağlamlığıdır. Bu yarışdan sonra bizim övladlarımız öz va-



- Şükürlər olsun ki, bunun üzərində işləyən, vəziyyəti qiymətləndirən və düzgün qərarlar qəbul edən komitəmiz var. Amma mən də bir vətəndaş kimi narahat oluram, buna görə bəzi təkliflər verməyi özümə borc bilirəm. Məsələn, Avropa Oyunlarının keçirilməsi zamanı avtomobillərin şəhərə girişini məhdudlaşdırmaq lazımdır ki, yollar qismən boşalsın.

**- Ulduz səfirlər üçün idman növlərinin seçimi zamanı "Çimərlik futbolu"nun qismətinizə düşəcəyini gözləyirdiniz?**

lideyinləri ilə o idman komplekslərinə gedəcəklər. Həmin idman növlərinə yazılıb, idman sahəmizi daha da inkişaf etdirəcəklər. Bu da gələcəkdə Olimpiya, dünya və Avropa çempionlarının yetişməsinə bir zəmin yaradacaq. Biz sağlam millət olacağıq. Sağlam millət isə hər şeyə qadirdir.

**- Tez-tez Avropa ölkələrinə sayahət edirsiniz. Sizcə, ölkəmiz avropalı turistləri qane edəcəkmi? Bu barədə nələr düşünürsünüz?**

- Hər şey bizim özümüzdən asılıdır. Dəfələrlə demişəm ki, şəhər ilk növbədə memarlıq və arxitekturadan başlamır. Hər hansı bir ölkəyə getdikdə diqqət çəkən ilk amil insan resursu olur. Əgər bizim insanlar həmişəki, tarixən olduqları kimi qonaqpərvər olsalar, turistlərin buradan narazı getməsi mümkün deyil. O ki qaldı infrastruktura, onlar hər şeyi görüblər. Biz qonaqpərvərliyimiz, musiqi və incəsənətimizlə onları təəccübləndirə bilərik. Necə ki bir vaxtlar keçmiş sovetlər ittifaqının vətəndaşlarını təəccübləndirə bilirdik. Turistlər buradan razı getdiyi halda, gələcək illərdə ölkəmizə daha çox turist axını olacaq. Bu o demək deyil ki, bizdə heç bir poblem yoxdur. Var, bunlar da sağlam problemlərdir. Həmin problemlər həll olunur və zamanla həll olunacaq. Bizim millət buna qadirdir. Azərbaycanlılar istedadlı, çalışqan xalqdır. İşləmək, savadlanmaq, təhsil almaq və ancaq irəliyə baxmaq lazımdır. Biz gərək qarşımıza ən yüksək məqsədlər qoyaq. Necə ki vaxtilə Üzeyir Hacıbəyov Şərqdə ilk operanı yazmağı qarşısına məqsəd qoymuşdu. Şərqdə bir sıra ilklər bizdə olub. Gələcəkdə də nə yeniliklər olacaqsa, biz bir millət kimi gərək qarşımıza belə bir məqsəd qoyaq ki, bunu ilk olaraq biz etməliyik. Həmin ilklərlə bağlı qarşımıza ali məqsədlər qoysaq, inanın, biz həmişə çevik millət olacağıq. Arxayın oturmamağımız üçün bizim qarşımızda həmişə problem olmalıdır, amma sağlam problem.

**- Əvvəllər çimərlik futboluna marağınız var idimi?**

- Çimərlik fotbolu idman növü 1992-ci ildə Brazilyada yaranıb. Artıq 2005-ci ildə rəsmiləşərək yarışlar keçirilib. Mən də gənc olarkən Ələt, Nardaran, Şüvəlan, Pirşağı, Şıxov və digər kəndlərdə çimərlik futbolu oynamışam. O zaman bunun rəsmi adı yox idi. Biz qumda futbol oynayırdıq. Bakıda böyüyən hər bir oğlan çimərlik futbolu ilə məşğul olub. Əfsuslar olsun ki, bu idman növü ilə məşğul olmaq üçün həyətlərimizdə elə meydançalar yoxdur. Məlumat üçün bildirim ki, şərait olmasa belə, MDB ölkələrinin bu futboldan xəbəri olmayanda Azərbaycanda bu idman növündən istifadə edilirdi. Bizim dənizkənarı sahilimiz Astaradan Dərbəndə kimi 825 kilometrdir. Gənclərimiz o sahillərdə hər zaman qum üzərində futbol oynayıblar. Qeyd edim ki, çimərlik futbolu SSRİ ölkələri arasında birinci dəfə Azərbaycanda oynanılıb. Allah Ələkbər Məmmədova rəhmət eləsin, 1986-cı ildə bu futbolu Azərbaycana o gətirmişdi. O zaman bu oyun mini futbol adlanırdı.

**Xəyalə Rəis**